**Щцсейнбала Мирялямов**

# ÇİMƏRLİK

Əgər mavi, miləmil pərdənin açıq qalmış yerindən süzülən şıltaq və inadkar gün işığı düz gözünün içinə düşməsəydi, Elbəy yəqin ki, hər bazar günü olduğu kimi, bu gün də, xumarlana-xumarlana, azı-azı, hələ bir saat da yatacaqdı.

O, yerinin içində bir xeyli o üz-bu üzə qurcalanandan sonra, birdən-birə, necə oldusa, Röya yadına düşdü. Qeyri-ixtiyari əlini uzadıb telefonun dəstəyini götürdü – illərdən bəri yaddaşına həkk olunmuş nömrəni tənbəl-tənbəl yığdı və çox çəkmədi ki, xəttin o biri başından yaşlı qadın səsi gəldi:

– Alo…

Elbəy fikirləşdi ki, yəqin anasıdır. Çəkinə-çəkinə soruşdu:

– Bağışlayın, Röyanı olar?

– Evdə yoxdur.

Elbəy dəstəyi yerinə qoydu və narazı halda üz-gözünü turşutdu: “Maraqlıdır, görəsən, səhərin gözü açılmamışdan hara gedib?” Və hiss etdi ki, bu müəmmalı suala cavab tapmaq o qədər də asan deyil…

Röyanı çoxdan –səhv etmirsə, onuncu, ya da on birinci sinifdən tanıyırdı. Bu qız, elə bil, yaşıdlarına nisbətən tez, həm də qəfildən – birdən–birə böyümüşdü, gözəgəlimli olmuşdu və elə birdən-birə də oğlanların, hətta, deyilənə görə, ali məktəbi yenicə bitirib, işləmək üçün rayona gəlmiş bədən tərbiyəsi müəlliminin də diqqətini cəlb eləmişdi. Amma Röya, nədənsə, təkcə Elbəyə meyil edirdi, onunla tez-tez zarafatlaşır, küsüşür, barışırdı…

Maraqlıdır ki, yaşıdları arasında ilk dəfə dikdaban tuflini də Röya geyinmişdi. Bunu görən Elbəy ona söz atmışdı:

– Asta yeri, kəmər düşər belindən…

Röya gülümsəmişdi, hətta ürəyindən kəmər taxmaq da keçmişdi. Amma bir az sonar Elbəyin oxuduğu şeiri eşidəndə, əməlli-başlı dilxor olmuşdu.

Məktəbli qız, əynindəki
Nə şifondur, nə gülməxmər.
Fəqət gözəl görünürsən
Bu paltarda sən nə qədər
Hər misalı həll edəndə
Tər üzündən axır dən-dən…
O danələr qiymətlidir
Min pay soyuq mirvaridən.
Hələ elmin yollarında
Yeriyirsən, min arzun var
Yoxuş çıxan ayaqlara
Nə gərəkdi dikdabanlar?..

Elbəyin bu məzəmməti, doğrudan da, Röyanın xoşuna gəlməmişdi, incik halda demişdi:

– Nə olsun dikdaban tufli geyinmişəm? Dərslərimdən də "beş" alıram. Sinifdə hamı riyaziyyatı məndən köçürür…

Röya cavab gözləmədən gedəndə, ayağı burxulmuş, tuflisinin dabanı qırılmışdı. Çönüb, gülə-gülə ona tamaşa eləyən Elbəyə demişdi:

– Tuflimə gözün dəydi. İndi nə edəcəyəm?

Elbəy:

– Gedək, usta düzəltsin, - demişdi.

Röya gülümsünmüşdü:

– Onda, yaxşı, gəl qolundan yapışım.Yoxsa, belə gedə bilmərəm…

Yolboyu Elbəy hiss etmişdi ki, Röya qəsdən, bilə-bilə bütün ağırlığını onun qoluna salır və bundan xüsusi ləzzət alır…

Nə qədər qəribə də olsa, bu tufli əhvalatından sonar Elbəy Röyaya qarşı əvvəlkindən də soyuq olmuşdu, indi o, - aradan altı-yeddi il keçəndən sonar – bunu özünün gənclik səhvi kimi qiymətləndirirdi: uşaq olub, Röyanın saf məhəbbətini başa düşməyib, vəssalam…

Elbəy telefonun dəstəyini bir də qaldırdı və bu zaman nəzərləri babasının divardan asılmış şəklinə sataşdı və istər-istəməz, xəyalı keçmişə pərvazlandı. O, kiçik olanda hərdən valideynləri ilə birlikdə rayona – nənəsigilə gedərdi. Nənəsi – rəhmətlik onun yerişinə, duruşuna baxıb şəstlə deyərdi: babasına oxşayacaq! Bu sözlərdə, hardasa, həqiqət vardı. Elbəy həmişə idmanla məşğul olduğundan, bədəni ahəngdar inkişaf etmişdi. Onun eynən babası kimi hündür boyu, gur saçları, açıq alnı, ala gözləri, təmiz aydın sifəti, iti kəskin baxışları vardı, səsində qətiyyət və inam duyulurdu.

Elbəy, vəznəli çuxa geyinmiş, gümüşü xəncər taxmış babasının şəklinə uzun-uzadı baxsa da, fikrində kimə zəng vuracağını götür-qoy edirdi. Nəhayət:

– Hə, Fındıqburun, - dedi.

Nədənsə, anası, Ayçiçəyin adını “Fındıqburun” qoymuşdu. Hərdən elə Elbəyin yanındaca ona ərklə deyirdi:

– Ay qız, qarğıdalı kimi hara belə uzanırsan? Yoxsa, Elbəydən hündür olmaq istəyirsən? Qıçlarını sındıraram ha!

Yazıq qız bir söz deməz, rəng verib, rəng alar, xəfifcə gülümsəyərdi və hiss edərdi ki, Elbəyin anasının, belə deməsinə baxmayaraq, onun boy-buxunundan çox xoşu gəlir…

Sonra Elbəyin anası Ayçiçəyi qucaqlayıb öpərdi…

Əlbəttə, bütün bunlar çox xoş idi, amma Ayçiçək əsas sözü Elbəydən gözləyirdi, hərdən küçədə və ya həyətdə ona rast gələndə addımlarını yavaşıdırdı və o əsas söz deyilmirdi, qızcığazın qəlbindəki ümid qığılcımı iztirab və nigarançılıq alovuna dönüb bütün varlığını sarırdı…

Amma indi o vaxt deyildi. Elbəy uşaqlığın daşını atmışdı, böyümüşdü, nə az, nə çox, iyirmi beş yaşın içində idi, bir-iki il idi ki, institutu bitirmişdi, ucqar dağ rayonlarından birində prokuror işləyən atasının zəngindən sonra bir idarədə çox yaxşı işə düzəlmişdi.

Elbəy, tərəddüd içində olsa da, nömrəni yığdı və titrək səslə dedi:

– Ayçiçəyi (az qalmışdı Fındıqburunu desin) olar?

– Evdə yoxdu…

Elbəy dəstəyi yerinə qoydu. Öz-özünə düşündü: “Görəsən, hara gedib? Bəlkə elə Röya ilə bir yerdədi? Yox, onlar uşaqlıqdan bir-birini xoşlamırlar. Bəlkə Nəzrinə zəng eləyim?”

Nömrəni əzbər bilirdi – dərhal yığdı. Əvvəlki zənglərdən fərqli olaraq bu dəfə telefonu kişi götürdü:

– Bağışlayın, Nəzrini olar?

– Evdə yoxdu. Kimdi soruşan?

Elbəy cavab vermədən dəstəyi yerinə qoydu və yadına düşdü ki, məktəbdə uşaqlar Nəzrini “Ağ balıq” adlandırırdılar. Təkcə ona görə yox ki, ağ balıq kimi həm ağ, həm də kök idi, həm də ona görə ki, sürüşüb əldən çıxmağı bacarırdı…

Elbəyin ora-bura zəng etmək həvəsi birdən-birə büsbütün söndü. Qalxıb yuyundu, nahar elədi, paltarını geyindi, televizorun altındakı şkafı açdı, foto-jurnalın arasına yığdığı şax pullardan bir neçəsini götürüb cibinə qoydu və elə-belə, gəzmək üçün evdən çıxdı.

Pillələri düşə-düşə qapılara vurulmiş lövhələrdəki familiyaları oxumağa başladı. Öz-özünə güldü – hər dəfə bu pillələri düşəndə, özü də hiss etmədən bu adları oxuyurdu. Bu nə vərdiş idi başa düşmürdü…

Həmişəki kimi, birinci mərtəbədə caz musiqisi səslənirdi. Kamil idi, görünür, konsertə hazırlaşırdı.

Elbəy küçəyə çıxan kimi parka sarı getdi. Birdən avtobus dayanacağına toplaşmış əli şey-şüylə dolu adamlar diqqətini cəlb elədi. “Bunlar hara gedirlər? Əlbəttə, çimərliyə! Yay çoxdan gəlib! Yəqin ki, Röya da, Ayçiçək də, Nəzrin də elə çimərlikdədirlər. Mən isə, heç mövsümü açmamışam…”

Elbəy parkla üzüaşağı enməyə başladı. “Azneft”in qabağındakı avtobus dayanacağına da xeyli adam toplaşmışdı. Maraqlıdır ki, çoxu da qız idi.

Nəhayət, avtobus gəldi. Basabas düşdü. Elbəy bir də baxdı ki, onu itələyə-itələyə avtobusun içinə salıblar. Keçib boş yerlərdən birində əyləşdi. Elə bu vaxt boy-buxunlu, sarışın bir qız onun yanındakı boş yeri tutdu. Qəribə idi, bu qız, elə bil, bir az Röyaya, bir az Ayçiçəyə, bir az da Nəzrinə oxşayırdı. Elbəy birdən-birə hiss elədi ki, uşaqlıqda (buna uşaqlıqdan başqa heç nə demək olmazdı) bu qızların hər üçünə qarşı gizli rəğbəti (bəlkə də gizli sevgisi) olub.

Elbəy keçmişi xatırlaya-xatırlaya sarışın qızın avtobusun şüşəsində güclə sezilən əksinə baxırdı…

***

Ucsuz-bucaqsız çimərlikdə yarıçılpaq adamlar qarışqa kimi qaynaşırdılar. Hava bərk isti idi. Daldalanmaq üçün hamı kölgəlik axtarırdı. Sudan təzəcə çıxanların yaş bədəni günəşin şüaları altında bərq vururdu. Birdən Elbəy diksindi… Röya… Yanında da Nahid… Onlar zeytun ağacından azca aralıda – kölgəlikdə yerə adyal salıb uzanmışdılar… Röya başını Nahidin tüklü sinəsinə qoymuşdu… Elbəyi görəndə hec qımıldanmadı da… Birdən Elbəyin çuxa geyinmiş, gümüşü xəncər taxmış babasının şəkli gəlib gözlərinin önündə durdu…

Elbəy keçən həftə Nahidlə bilyard oynamışdı və həmişəkinin əksinə olaraq, uduzmuşdu. Nahid gözləri parıldaya-parıldaya demişdi:

– Səhv etmirəmsə, biz puldan oynayırdıq…

Elbəy gülümsünmüşdü:

– Hə…

– Bəs, niyə vermirsən?

– Nə vaxt udanda almışam?

– O sənin öz işindir…

Nahidin sözlərindəki ciddiliyi hiss edən Elbəy çıxarıb ona on beş manat vermişdi və demişdi:

– Amma mən udsaydım, götürməzdim…

– O yenə sənin öz işindir…

Nahid on beş manatı şəstlə qatlayıb cibinə qoymuşdu və onda pula qarşı olan hərislik Elbəydə ikrah hissi doğurmuşdu…

Nahidlə Röyadan bir qədər aralıda Ayçiçək – Fındıqburun bir oğlanla söhbət edirdi. Kim bilir, bir az gəzsə, bəlkə elə Nəzrinə də rast gələcəkdi?

Amma, nədənsə, Elbəy onları qınamadı.

Axı, onlardan heç birinə heç nə deməmişdi. Oturub onu gözləməyəcəkdilər ki…

***

Uzaqda ləpələr ağarırdı. Elbəy fikirləşdi ki, suya girməmişdən əvvəl yaxşı olar ki, özünə alababat bir yer tapsın. Futbol və voleybol oynayan oğlanların və qızların yanından keçib, ayaqlarını isti qum yandıra-yandıra bir xeyli ora-bura boylandı, amma münasib yer tapmadı. Birdən avtobusdakı sarışın qız gözünə dəydi, gəlib onunla üzbəüz dayandı. Qəribə də olsa, ürəyi döyündü, özünü narahat hiss etdi, deyəsən, elə qız da bir balaca pörtdü. Elbəy bu qeyri-müəyyən hissin təsirindən yaxasını qurtarmaq üçün oradan uzaqlaşmaq istədi, amma, nədənsə, bacarmadı, əlindəki paltarları elə dayandığı yerə qoydu və ağır addımlarla dənizə sarı getdi.

Su ilıq olmasına baxmayaraq, adamın bədənini sərinlədirdi. Elbəy əl-qol açdı, üzdü, özünü hardasa, dənizin lap dərinliklərindən gələn bir dalğanın qucağına atdı, qayıq kimi atılıb düşdü, elə bu vaxt çimərlik qonşusunu – sarışın qızı lap yaxınlığında gördü və nəyə görəsə qürrələnmək, özünü göstərmək üçün əllərini başının altında çarpazlayıb, arxası üstə suyun üzündə uzandı və xeyli müddət beləcə qaldı. Sonra birdən-birə qışqırıq səsi eşitdi: “Kömək edin! Kömək edin!”. Çönüb baxanda gördü ki, sarışın qız dalğaların qoynunda batır. Dərhal özünü irəli atdı. Peşəkarlar kimi, qızı dənizin dərinliklərindən sahilə sarı atdı, onun əldən düşdüyünü, halsız olduğunu görüb, dincəlməsi, toxtayıb özünə gəlməsi üçün belindən yapışdı.

…Bir azdan onlar sahildə idilər. Elbəy başını bulaya-bulaya dedi:

– Üzə bilmirsən, həm də elə dərin yerə gedirsən.

Qız dinmədi, mehriban nəzərlərlə xilaskarına baxdı. Elbəy bu dəfə lap məhrəm adam kimi soruşdu:

– Bərk qorxdun?

Qız yenə dinmədi.

Elbəy birdən ayağa qalxdı və dedi: – Mən uşaq vaxtı bir şeydən qorxanda rəhmətlik nənəm həmişə deyərdi ki, su iç. Gedim sənə su alım, gəlim.

Qız soruşdu:

– Bir şeydən… yəni nədən qorxurdunuz?

– İlandan…

Qızın əti ürpəşdi:

– Oy, ilandan mən də qorxuram.

Elbəy daha bir söz deməyib, su almağa getdi, tez də qayıtdı. Sakitcə dayanıb qızın su içməyinə baxdı:

– Bəlkə məni özünə cangüdən götürəsən… dənizdə…

– Olar… Ancaq mən tətil başlayandan hər gün dənizdə oluram… Sən də yəqin ki, iş-güc adamısan…

Qızın üzü od tutub yandı. Birdən-birə belə açıq-saçıq danışdığına görə xəcalət çəkdi. Elbəy onun bu halını hiss edib, tələsik dedi:

– Bəlkə dənizə gedək…

– Gedək…

Su sinələrinə qalxana qədər yanaşı getdilər. Birdən qız qəfildən sıçrayıb irəli cumdu. Elbəy özünü çatdıranda, qız artıq əllərini başının altında çarpazlayıb suyun üzündə arxası üstə sakitcə uzanmışdı. Elbəy karıxmış halda dedi:

– Başa düşmədim…

Qız gülümsündü:

– Hoqqa çıxarıram də… Olmaz?

– Bayaq suda batırdınız, indi isə, balıq kimi üzürsünüz…

Qız uğunub getdi:

– Bayaq cəsarətini yoxlamaq istəyirdim…

***

Elbəy çimərlikdə çox olmuşdu. Ancaq o, heç zaman adamları bu qədər sevincli görməmişdi. Keçirdiyi bu hiss, bəlkə də, daxilindəki çarpışmaların sona çatması ilə bağlı idi. Deyəsən, hər şey yaxşılığa doğru gedirdi. Bayaqdan diqqətini çəkən mənzərə onu əməlli-başlı düşünməyə sövq etmişdi. Beşcə addım o tərəfdə quma sancılmış çətirin kölgəsində gənc bir oğlan – elə Elbəylə həmyaş olardı - gənc bir qızla yanaşı uzanmışdı. Ayaqları  güclə yer tutan bir körpə də onların yanında oynayırdı, təzəcə-təzəcə addım atırdı. Deyəsən, sarışın qız da bayaqdan bu mənzərəyə baxırdı.

Elbəy dedi:

– Çox qəşəng uşaqdı.

Qız mənalı-mənalı gülümsədi:

– Hə… Adam lap yemək istəyir…

Elbəy mənalı-mənalı sarışın qızın üzünə baxdı və hiss etdi ki, deyəsən, həyatında, nəsə, ciddi bir dəyişiklik baş verir…

2000